# MÜHARİBƏNİN İŞĞAL ALTINDA OLMUŞ TORPAQLARIMIZIN DEQRADASİYASINA TƏSİRİ

**Fərayət Əhmədova, Mehnurə Rəhimova, Sevda Həsənova**

*Bakı Dövlət Universiteti, mexaragimova@rambler.ru*

Bütün canlılar, o cümlədən mikroorqanizmlər daima ətraf mühit amillərinin təsiri altındadır və istənilən kənarlanmalara dərhal reaksiya verirlər. Müasir dövrdə baş verən müharibələr də mühit şəraitinin dəyişilməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olur. Müxtəlif tipli silahlardan istifadə torpağın mikrobiotasına mənfi təsir göstərir ki, bu da ilk olaraq onun məhsuldarlığını azaldır, hətta bəzi hallarda həmin sahələri əkin üçün tamamilə yararsız hala salır. Son 30 ilə yaxın müddətdə erməni qəsbkarları tərəfindən işğal altında qalan torpaqlarımız çirklənmələrə məruz qalaraq deqradasiyaya uğramışdır. Belə torpaq sahələrinin təkrar istifadəyə bərpası üçün onu normal mikrobiotasına qaytarmaq tələb olunur.

Qeyd olunan məsələlərin həlli üçün müxtəlif istiqamətli elmi-tədqiqat işlərinin aparılması mütləqdir: həmin torpaqların mikrobioloji durumunun təmiz əkin torpaqları ilə müqayisəli şəkildə öyrənilməsi və çirklənmə dərəcəsinin qiymətləndirilməsi; torpaqların fiziki-kimyəvi tərkibinin müəyyənləşdirilməsi; torpağın məhsuldarlığına mənfi təsir göstərən maddələrin müasir metodlarla təmizlənməsi; meliorasiya və yeni aqrotexniki tədbirlərdən istifadə edilməsi; becəriləcək bitkilərin təbii iqlim şəraitinə və torpağın mövcud vəziyyətinə görə düzgün seçilməsi və s.